# “Dinamika olan yer həmişə mənim üçün maraqlıdır”



## Rüstəm Məmmədov deyir ki, müasir dövrdə araşdırmaq və öyrənmək üçün limitsiz imkanlar mövcuddur

**Təhsilə çox əhəmiyyət verir. Hətta nəzəriyyənin boş şey, təcrübənin hər şey olduğunu deyən adamın savadına şübhə ilə yanaşır. Onun fikrincə, nəzəriyyə təcrübənin çata biləcəyi ideal nöqtədir. Həmişə qarşısına məqsəd qoymağı və araşdırmağı sevir. Müsahibimiz PAŞA Həyat Sığortada İdarə Heyətinin üzvü Rüstəm Məmmədovla tanış olaq...**

**- Deyəsən, 13 yaşınızdan ailənizdən uzaqda yaşayırsınız...**

- Mən 4-cü sinifdə oxuyanda Qarabağ müharibəsi başladı və biz kənddən çıxdıq. 5-ci sinfi demək olar ki, yarımçıq oxudum. 6-cı sinifdə Qubadakı Türk liseyinə qəbul oldum. Daha sonra səhhətimlə bağlı təhsilimi Mingəçevir Türk Liseyində davam etdirdim. Liseyin yataqxanasında qalırdım və 2-3 həftədən bir həftə sonu evə gedirdim. Liseyi qurtarandan sonra yenə də evdən ayrı, kirayədə, ya yataqxanada yaşamışam.

**- Kiçik yaşlarından ailədən uzaqda yaşamaq sizə nə verdi?**

- Sərbəst qərar vermək və ünsiyyət qurmaq bacarığı. Kiminlə münasibətimin nə formada olacağına, konfliktləri necə həll edəcəyinə, ən xırda və böyük problemləri necə həll edəcəyinə özün qərar verməlisən. Bir də yataqxanada qalmaq təbii ki, ünsiyyət qabiliyyətini artırır. Yataqxanada hər xarakterdə adam olur. Hamı ilə dalaşıb bütün gününü dava-dalaşla keçirə bilməzsən. Hər kəslə necə davranacağını bilməlisən. Bu baxımdan, hər xarakterdə adamla nə formada ünsiyyət quracağını, kiminlə nə formada iş görəcəyini, dostu, düşməni necə qazanacağını öyrənmiş olursan.

**- O zaman yəqin ixtisas seçiminizi özünüz etmisiniz...**

- Demək olar. Amma valideynlərimin də məsləhətləri ciddi rol oynayıb. Jurnalist olmaq istəyirdim. 11-ci sinfə qədər jurnalistikaya hazırlaşırdım. Son anda iqtisadiyyat üzrə oxumağa qərar verdim. Düşündüm ki, sonra iqtisadiyyatdan yazan jurnalist olaram. Qərarım müəllimlərim üçün çox böyük şok oldu. Çünki artıq 11-ci sinifdə oxuyurdum. Neçə ildir əziyyətlə oxuduğum tarix bir kənarda qaldı, riyaziyyat oxumağa başladım. İqtisad Universitetinin Beynəlxalq iqtisadi münasibətlər fakültəsinə daxil oldum.

**Lalə MUSAQIZI**

**- Bəs necə oldu ki, iqtisadiyyatdan yazan jurnalist olmaq arzunuzu reallaşdırmaqdan vaz keçdiniz?**

- Oxuduğum müddətdə məndə iqtisadiyyata maraq yarandı. Yaxşı da oxuyurdum. Amma hiss edirdim ki, nəsə çatmır. 4-cü kursda oxuyanda marketinqdən dərs keçdik və elə bil ki, tam mənada xarakterimə uyğun işi tapdım. O vaxtlar marketinq çox yeni idi, çoxları heç bilmirdi ki, belə bir peşə var. Ondan sonra sırf marketinqi öyrənmək üçün Türkiyədə, İstanbul Universitetində Marketinq idarəçiliyi ixtisası üzrə magistr təhsili aldım.




**- Sizcə, hansısa sahədə işləmək üçün həmin sahə üzrə təhsil almaq nə dərəcədə önəmlidir?**

- Mən təhsilə çox əhəmiyyət verən adamam. Hətta sərt çıxsa da, deyim ki, nəzəriyyənin boş şey, təcrübənin hər şey olduğunu deyən adamın savadının olduğuna şübhə ilə yanaşıram. Nəzəriyyə təcrübənin çata biləcəyi ideal nöqtədir. Təcrübə nə vaxt nəzəriyyədəki ideala çatsa, nəzəriyyə də inkişaf edir, yerində durmur. Bir sözlə, nəzəriyyə təcrübədən ayrı deyil.

Amma, ”hansısa sahə” demək bir az işi mürəkkəbləşdirir. Çünki, insanlar var ki, dəqiq peşə baxımından hədəf və məqsədləri yoxdur. ”Nə iş olsa, görərəm” deyən insanlar. Belə olanda əsasən operator işi görürlər və doğrudan bəzən xüsusi təhsilə ehtiyac olmur. Amma, insan hansısa ixtisas seçirsə, hansısa peşəyə sahiblənmək istəyirsə, təhsil mütləqdir, zəruridir.

**- Uzun müddət, təxminən 10 il avtomobil sektorunda çalışmısınız. Avtomobil sektorundan sığorta sektoruna keçmək çətin olmadı ki?**

- Qərar vermək çətin oldu. İşin içində bir az emosional faktorlar da var. Avtomobil sektorunda işlədiyim dövrlər, nəinki hər günündən, bəlkə də hər dəqiqəsindən ləzzət aldığım günlər olub. İkincisi, ”Auto Azerbaijan” ilk iş yerim olub. İnsan ilk iş yerinə həmişə emosional tellərlə bağlanır. Bu baxımdan çətin oldu. Amma düşünəndə ki, PAŞA Həyat Sığorta 5 il əvvəl qurulub, yeni şirkətdir, burada dinamizm var, qərarımı verdim. Dinamika olan yer həmişə mənim üçün maraqlıdır. Bu baxımdan, yeni işimə adaptasiya olmaq çətinliyi yaşamadım. Amma sektoru və sığortanın incəliklərini hələ də öyrənirəm. Mütəxəssis olaraq mən marketoloqam. Amma 4 ildən çoxdur ümumi idarəetmədəyəm. İdarəetmə isə sektoral bilgidən daha çox liderlik və qərarvermə qabiliyyəti tələb edir.

**- PAŞA Həyat Sığortada İdarə Heyətinin üzvü kimi çiyinlərinizə düşən əsas məsuliyyət nədir?**

- İdarə Heyətinin üzvü kimi strateji marketinq və yeni məhsullara birbaşa məsuliyyət daşıyıram. Biz komanda olaraq elə etməliyik ki, insanlar həyat sığortasının nə olduğunu, əhəmiyyətini, onlar üçün hansı dəyər yaradacağını bilsinlər. Bizim işimiz ondan ibarətdir ki, insanlara bunları ən düzgün şəkildə çatdıraq ki, onlar da özləri üçün doğru qərarı versinlər.

**- Rüstəm bəy, mentorunuz var?**

- Var. Valideynlərim müəllimdir. Hələ də müəllim kimi işləyirlər. Baxmayaraq ki, kənddə yaşayıblar, indi də rayondadırlar, hər ikisi çox uzaqgörən, müasir sözlə desək, vizioner insanlardır. Bundan başqa, istənilən mövzuda məsləhətləşəcəyim dayılarım və həyat yoldaşım var. 2013-cü ildən 2014-cü ilə kimi isə professional fərdi xarici mentor xidmətindən istifadə etmişəm. Yenə də professional xarici mentorla işləməyi planlaşdırıram.

**- Ənənəvi sualımız: uğur sirriniz nədir?**

- Əgər məni uğurlu hesab etmək olarsa, onda məqsədli olmaq və araşdırmağı uğur sirrim saymaq olar. Bugünkü dövrdə isə araşdırmaq və öyrənmək üçün az qala limitsiz imkanlar mövcuddur.



